# Gədəbəydə abadlıq işləri davam edir

Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramına uyğun ölkəmizin hər yerində olduğu kimi, uca dağlar qoynunda bədnam qonşularla 123 km sərhəddə yerləşən Gədədbəydə də genişmiqyaslı abadlıq və yenidənqurma işləri aparılır.

Belə ki, küçələrimiz abadlaşır, yaşıllıqlar salınır, məktəblər, xəstəxanalar, inzibati binalar tikilir. Bu yerlərdə sosial problemlərin həllinə xüsusi diqqət yetirilir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 01 noyabr 2006-cı il tarixdə Gədədbəyə birinci səfərindən sonra rayonda qaz çəkilişinə də xüsusi önəm verilməyə başlanıb. Çalburun kəndində təbii qazın açılışı, İsah kəndində 180 yerlik müasir tipli yeni məktəbin və şəhərin Qumlu massivində 100 yerlik uşaq bağçasının tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir. Şəhidlər xiyabanında və Böyük Vətən Müharibəsi iştirakçılarının xatirəsinə həsr edilmiş “Ana” abidə kompleksində əsaslı təmir işləri, Zərifə Əliyeva və 20 Yanvar küçələrində yenidənqurma işləri aparılmışdır.

Ən yaddaqalan hadisələrdən biri “Bakı - 2015” I Avropa Oyunlarının tərkib hissəsi olan “Məşəl estafeti”-nin yüksək səviyyədə keçməsi olmuşdur. Mayın 19-da şəhərin Zərifə Əliyeva küçəsindən start götürən, 20 Yanvar küçəsindən, Heydər Əliyev prospektindən keçməklə 2,5 km məsafəni qət edən idmançılarımız on beş mindən çox rayon sakinləri tərəfindən qarşılanmaqla




Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşdiklərini bir daha əyani şəkildə nümayiş etdirmişdir.

Rayonda aparılan abadlıq-quruculuq işləri səfərbərlik və hərbi xidmətə çağırış üzrə mütəxəssis hazırlığı MMC-nin Gədəbəy rayon filialından da yan keçməmişdir. Belə ki, məktəbin stend divarlarına çəkilmiş yanar strukturdan olan materiallar sökülərək yenidən aqlay daş örtüklə üzlənmişdir.

Bu görülən işlərdə rayon icra hakimiyyətinin və onun başçısı Ramiz Yediyarovun əməyi çox olmuşdur. Məktəbdə yaradılan bu gözəl şəraitə görə məktəbin kollektivi və öz adımdan rayon icra hakimiyyətinə dərin minnətdarlığımı bildirirəm.

**F.RZAYEV,**
**Səfərbərlik və hərbi xidmətə çağırış üzrə üzrə mütəxəssis hazırlığı MMC-nin Gədəbəy rayon filialının direktoru.**